

# Teatrlaşdırılmış tamaşalar

## Bu kütləvi işi necə qurmalı?!

***Təqvimimiz özünün müxtəlif səpgili bayramları ilə zəngindir. İstər bu bayramlar, istərsə də yazıçı, şair, elm və mədəniyyət xadimlərimizin yubileyləri ilə bağlı dövlət və bölgə səviyyəli rəngarəng tədbirlər keçirilir. Həmişə də çalışılır ki, minlərlə tamaşaçının qatıldığı kütləvi bayramlardan xüsusi zövq alınsın, adamlarımız mənəviyyatca saflaşsın.***

Məqsədə nail olmaq isə ilk növbədə tədbirin yüksək səviyyədə keçirilməsindən asılıdır. Məlumdur ki, teatrlaşdırılmış kütləvi tamaşalar geniş əhatəli və spesifik xüsusiyyətlərə malikdir. Onu küçələrdə, meydanlarda, parklarda, stadionlarda təşkil etmək olar. Bu böyük kütləvi mədəni tədbir bir və ya bir neçə gün də davam edə bilər. İlk günlər briqadada, şöbədə, kolxoz, sovxoz və digər müəssisələrdə, o biri gün isə rayon mərkəzində və ya gündüz küçələrdə, axşam isə stadionda, meydanda, konsert və tamaşa salonunda keçirmək mümkündür.

Belə böyük tədbiri hazırlayan yaradıcı işçilərin, xüsusilə də rejissorun üzərinə ciddi məsuliyyət düşür. O, hər şeydən əvvəl aşağıdakı məsələlərin həllinə xüsusi diqqət yetirməlidir:

1. Rejissor tamaşanı hazırlayarkən, ilk növbədə mövzunu müəyyənləşdirməlidir. Yəni kütləvi tamaşa nəyə həsr olunur, bəhs edir. Hansı hadisə ilə əlaqədar olaraq hazırlanır (məsələn, əmək nailiyyətlərinə, ictimai-siyasi bayramlara, hadisələrə, Böyük Vətən Müharibəsinin qələbəsinin ildönümünə və s.)

Ola bilər ki, əsas mövzuya köməkçi mövzu da əlavə edilsin. Lakin bu kiçik mövzular ümumi məqsədin açılmasına, hadisələrin, süjetin, ana xəttin inkişafına kömək etməlidir.

2. Mövzunu təyin etdikdən sonra repertuar seçilməlidir. Bəzən repertuar seçilmədən ssenari yazılır. Bu üsul, xüsusilə rayon yerlərində məqsədəuyğun deyil. Təcrübə göstərir ki, hazır repertuar əsasında ssenari yazmaq daha münasibdir. Repertuar seçilərkən yerli bədii özfəaliyyət kollektivlərinin qüvvəsi və imkanı hökmən nəzərə alınmalıdır. Bunun üçün xüsusi baxış keçirmək, yerlərə gedib müxtəlif kollektivlərlə, fərdi ifaçılarla yaxından tanış olmaq lazımdır. Tədbirin gedişi zamanı peşəkarlarla həvəskarların çıxışlarını elə təşkil etmək lazımdır ki, onlar bir-birilə uzlaşsın, biri digərini kölgədə saxlamasın. Repertuar seçərkən yalnız musiqi, mahnı, rəqs nömrələri deyil, həmçinin bura estrada, sirk, satira və yumor tamaşalarından səhnəciklər, pantomima, orijinal janr (janqlyor, akrobatik nömrələr, illüziya-gözbağlayıcı, məzhəkə və s.) nömrələri də daxil etmək lazımdır.

Repertuar zamanı nömrələri dəqiq müəyyən etdikdən sonra ssenari üzərində işə keçilməlidir.

3. Teatrlaşdırılmış kütləvi tamaşanın müvəffəqiyyəti ssenaridən çox asılıdır. Ssenari tam hazır deyilsə, işə başlamaq olmaz. Rejissor ssenaristlə (kütləvi tamaşaların ssenarisini əsasən rejissor özü yazır) birlikdə tədbirin ideyasını, ali məqsədini, hadisələrin inkişaf xəttini, başlanğıcını, zirvəsini (kulminasiyasını), finalını müəyyən etməlidir. Teatrlaşdırılmış kütləvi tamaşa hazır bədii əsərlərin, ayrı-ayrı epizodların, səhnəciklərin birləşməsindən yaranır. Hadisələri bir-birilə bağlamaq, əlaqələndirmək məqsədilə ssenariyə qısa mətn əlavə olunur.

Yaxşı olar ki, ssenaridə şerdən daha çox istifadə olunsun. Çünki nəsrə nisbətən şer daha effektli olur. Şer lakonikdir, poetik təsir qüvvəsinə malikdir. Şer mətni kütləvi tamaşalarda epizod və hadisələri bir-birinə daha yaxşı bağlayır.

4. Ssenari hazır olduqdan sonra rejissor onu yenidən hissələrə bölməli, parçaları, səhnəcikləri, idman və orijinal nömrələri məşq etmək üçün köməkçi rejissorlar arasında bölgü işi aparmalıdır.

Bütün məşqlər quruluşçu rejissorun nəzarəti və rəhbərliyi altında keçirilməlidir.

5. Ayrı-ayrı nömrələrin məşqi başa çatdıqdan sonra montaj işinə başlamaq lazımdır. İlk mərhələdə iştirakçılar mexaniki olaraq öz yerlərini dəqiqləşdirməli - hansı tərəfdən səhnəyə daxil olacağını, səhnənin harasında durub ifa və ya rəqs edəcəyini, şer söyləyəcəyini bilməli, bir sözlə, hər kəs öz yerini müəyyənləşdirməlidir.

Qeyd etdik ki, kütləvi tamaşalar geniş, əhatəli və spesifik xüsusiyyətlərə malikdir. Əgər tamaşa açıq havada təşkil edilibsə, onda səhnəni hər tərəfdən hamının görə biləcəyi yerdə qurmaq lazımdır. Əgər səhnə stadionun mərkəzindədirsə mizanları elə qurmaq lazımdır ki, ifaçıların arxası tamaşaçılara tərəf olmasın, ifaçılar həmişə hərəkətdə olmalı, gəzişməli, tamaşaçılarla bilavasitə ünsiyyət saxlamalıdır. Bəzi halda həm meydandan, həm də tribunadan səhnə kimi istifadə edildiyindən rəqs dəstəsi çıxış edib qurtardıqdan sonra, solist növbəti nömrəni tribunadan ifa etdiyinə görə meydan - səhnə boş qalır. Bu boşluq isə hadisələr arasındakı ümumi xətti pozur. Əlaqəni, bağlılığı qırmamaq, pozmamaq üçün solo ifaçılar; aparıcılar, müğənnilər meydanda çıxış etsələr daha yaxşı olar.

Kütlə ilə səhnəni əlaqələndirmək üçün mizanlara, səhnə hərəkətlərinə düzgün riayət etmək lazımdır. İstər teatr səhnəsində, istərsə də stadion - meydan şəraitində səhnə mizanları qurmaq mürəkkəb yaradıcılıq prosesidir. Məsələn, sülh və ya əmək haqqında mahnını ifa edən müğənni oxuya-oxuya salonda şəxsən bir tamaşaçıya yaxınlaşıb, sonra yenidən səhnənin ortasına qayıdıb qollarını geniş açaraq bütün tamaşaçılara müraciət edirsə o, demək istəyir ki, sülhün taleyi, xalqın xoşbəxtliyi, şəxsən sənin mənim, bizim hamımızın əlindədir, əməyindədir, zəhmətindədir. İfaçı hərəkətlərini, yerişlərini, gediş-gəlişini, duruşunu dönə-dönə ölçüb-biçməlidir.

7. Teatrlaşdırılmış kütləvi tədbirlərin daha effektli, ifadəli olması üçün rejissor rəssamla bədii tərtibat üzərində ciddi işləməlidir. Rəssam ssenari ilə tanışlıqdan sonra işə başlamalıdır. Hadisələrin, obrazların, xarakterlərin açılmasına kömək edən geyimlərin, qrimlərin müəyyən edilməsi; ifaçının, iştirakçının hansı epizodda, səhnəcikdə, mahnıda, rəqsdə, hansı rəngdə, hansı formada kostyum geyməsi, obrazın necə qrim edilməsi çox mühüm amildir. Rəssamın qarşısında duran əsas məsələlərdən biri də küçələrin, meydanların, tamaşa gedən stadionun tribunalarının plakatlarla, transparantlarla, şüarlarla, çağırışlarla, təbriklərlə, bayraqlarla və s. bəzəyə bilmək qabiliyyətidir.

8. Teatrlaşdırılmış kütləvi tamaşalarda səs tərtibatı da böyük rol oynayır. Radio texnikasından; maqnitafon, fonoqramma yazılarından burada geniş istifadə etmək lazımdır. Səhnədə hadisələri, hərəkət və mizanları, musiqini bir-birilə dəqiq uyğunlaşdırmaq üçün texniki vasitələrdən səmərəli istifadə etmək lazımdır.

9. Rejissor qarşısında ən çətin və mürəkkəb məsələlərdən biri də tamaşa-tədbir üçün düzgün temp və ritmin tapılmasıdır. Temp və ritmi müəyyən etmək üçün nömrələri, ayrı-ayrı səhnələri, epizodları xarakterlərinə, janrlarına görə fasiləsiz, ardıcıl, məntiqi birləşdirmək, xorun, solo mahnının, müstəqil musiqi parçalarının, maqnitafon lent yazılarının dəqiq, ahəngdar düzülüşünə xüsusi diqqət yetirilməlidir.

Kütləvi səhnələrin ümumi tempini, ritmini müəyyən edib saxlamaq üçün rejissor kütləvi səhnələrin mizanlarını elə qurmalıdır ki, iştirakçılar bir-birlərinə mane olmasın. İfaçılar tamaşaçılarla, tamaşaçılar isə ifaçılarla sıx təmasda olmalıdırlar.

Bədii tərtibatın, musiqinin, səsin, işığın, geyimlərin, hərəkətlərin, səhnə hadisələrinin hamısının daxili bağlılığını, ahəngdarlığını cilalayıb möhkəmlətmək və tədbirin kompozisiyasını tamamlayıb bütöv tamaşa yaratmaq üçün bu dediklərimizə mütləq əməl edilməlidir.

Məşqlərin təşkili, ifaçıların məşqə vaxtında gəlməsi, nəqliyyat və texniki vasitə ilə təmin edilməsi, saat neçədə gəlib neçədə getmələri, tamaşa və ya məşq vaxtı kimin hansı binada, hansı otaqda yerləşdirilməsi məsələləri ilə rejissor bilavasitə özü məşğul olmalıdır.

Ümumiyyətlə teatrlaşdırılmış kütləvi tamaşa - tədbir istər bədii, istərsə də təşkilati cəhətdən yüksək səviyyədə nizam-intizam, dəqiqlik və yaradıcılıq axtarışları tələb edir.

Bunu nəzərə alan rejissor hər bir tədbirə fərdi yanaşmalı, onunla bağlı bilgilərini zənginləşdirməli, müvafiq ədəbiyyat oxumalıdır. Digər vacib cəhət isə hazırlanmış ssenarinin icrasının savadlı adamlara həvalə edilməsidir.

**Mahirə YAQUBOVA**